**Küveytdə "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində tədbir keçirilmişdir**

İslam Konfransı Təşkilatının Gənclər Forumundan bildirmişlər ki, Küveytin ən böyük gənclər təşkilatlarından biri olan LoYAC-ın ofisində "Xocalıya ədalət" beynəlxalq kampaniyasının təqdimatı keçirilmişdir.

Tədbirdə iştirak edən gənclər təşkilatlarının nümayəndələrinə və qonaqlara Xocalı faciəsi haqqında məlumat verilmiş, kampaniyanın internet səhifəsi (www.justiceforkhojaly.org) və "Xocalı uşaqların gözü ilə" adlı fotosərgi nümayiş etdirilmişdir.

Xocalı qətliamına beynəlxalq səviyyədə hüquqi-siyasi qiymət verilməsi üçün dünya liderlərinə ünvanlanan petisiya iştirakçılara təqdim edilmiş və imzalar toplanmışdır.

Təqdimatda iştirak edən Azərbaycanın Küveytdəki səfiri Şahin Abdullayev gənclərə Xocalı faciəsi haqqında həqiqətlərin Küveyt ictimaiyyətinə çatdırılması üçün göstərdikləri təşəbbüsə və fəaliyyətə görə təşəkkür etmişdir.

**Azərbaycan.- 2010.- 19 fevral.- S. 9.**

Created with
nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional